

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 153 (21.305)

7 avqust 2015-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Ordubad şəhərində quruculuq ünvanlarının sayı artır



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Görkəmli maarifçi Məhəmməd Tağı Sidqinin ev-muzeyinin yaradılması haqqında" 2014-cü il 17 sentyabr tarixli Sərəncamına əsasən, görkəmli maarifpərvərin ev-muzeyinin yaradılması istiqamətində işlərə başlanılıb və yeni bina inşa edilib. Hazırda ikimərtəbəli binada son tamamlama işləri görülür, ərazi abadlaşdırılır. Muzeydə görkəmli pedaqoqun həyat və yaradıcılığını əks etdirən eksponatların nümayiş etdirilməsi üçün ekspozisiya zalı və iş otaqları yaradılıb.

Məlumat üçün bildirək ki, qədim Naxçıvan torpağının yetirdiyi məşhur ziyalılar sırasında Məhəmməd Tağı Sidqinin xüsusi mövqeyi vardır. Onun zəngin, çoxşaxəli yaradıcılığı, qaynar fəaliyyəti on doqquzuncu əsrin ikinci yarısı və iyirminci yüzilliyin əvvəllərində Azərbaycanda maarifin, ədəbiyyatın, filoloji fikrin, mədəniyyətin inkişafında mühüm rol oynayıb.

* * *

*Muxtar respublikada nəqliyyat idarəetmə sisteminin təkmilləşdirilməsi, avtomobillərin texniki vəziyyəti və onların təhlükəsiz hərəkətinin təmin edilməsi diqqət mərkəzində saxlanılır.*

Bu tədbirlərin davamı olaraq, Ordubad şəhərində Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin Ordubad Rayon Müayinə Mərkəzi üçün bina inşa edilir. İnşaat işləri Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Ordubad Rayon İdarəsi tərəfindən həyata keçirilir. Hazırda obyektdə son tamamlama işləri aparılır, həyətə asfalt salınır.

Məlumat üçün bildirək ki, iki mərtəbədən ibarət olan müayinə mərkəzinin binasının birinci mərtəbəsində avtomobillərin texniki baxışa hazırlığı, texniki baxışın keçirilməsi, qeydiyyat aparılması üçün zal və xidməti otaqlar, ikinci mərtəbədə isə iş otaqları və bufet yerləşəcək. Müayinə mərkəzi bu sahədə tətbiq olunan ən qabaqcıl texnologiyalarla təchiz ediləcəkdir. Burada kompüter dəsti, monitorlar qoyulacaq, xarici ölkələrin istehsalı olan texniki müayinə avadanlıqları quraşdırılacaq. Yeni avadanlıqlar minik və yük avtomobillərinin əyləc sisteminin, mühərrikdən atmosferə atılan işlənmiş qazların tərkibində olan zərərli tullantıların normativ standartlara uyğunluğunun, sükanın idarəetmə qollarının və almacıqlarının yoxlanılmasına, işıqların tənzimlənməsinə və şinlərin protektor naxışlarının ölçülməsinə imkan verəcək. Baxışdan keçən avtomobillər hər mərhələni qət etdikcə onun detallarının texniki vəziyyəti barədə məlumatlar kompüterdə əks olunacaq və Dövlət Yol Polisi İdarəsinin mərkəzi qeydiyyat sisteminə ötürüləcəkdir. Texniki baxış başa çatdıqdan sonra müayinənin yekun nəticələri nəqliyyat vasitəsinin sahibinə təqdim ediləcəkdir.

Səbuhi HÜSEYNOV

## Əhalinin gəlirləri artır, sosial rifahı yüksəlir

***Davamlı dinamik inkişafa nail olmaq həyata keçirilən iqtisadi siyasətin əsas hədəflərindən biridir. Bu baxımdan iqtisadiyyatın dövlət tənzimlənməsi vasitəsi kimi sosial rifahın yüksəldilməsinə xidmət edən bir çox mühüm tədbirlər vardır ki, onlar daim diqqətdə saxlanılır.***

Muxtar respublikamızda iqtisadi inkişafın artan tempinin əhali gəlirlərində də hiss olunması üçün sahibkarlıq fəaliyyətinin dəstəklənməsi, yeni iş yerlərinin yaradılması və səmərəli məşğulluğun təmin olunması sahəsində aparılan dövlət siyasəti bu məqsədə xidmət edir.

Cəmiyyətdə stabil iqtisadi inkişaf tempinin əldə olunmasında əsas göstəricilər kimi məşğulluq və əhali gəlirləri artımının mühüm əhəmiyyəti vardır. Bu baxımdan 2015-ci ilin yanvar-iyun aylarında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı göstəricilərinə nəzər saldıqda görürük ki, sənaye, kənd təsərrüfatı, tikinti-quruculuq, xarici ticarət, təhsil, səhiyyə və digər mühüm sahələrin inkişaf etdirilməsi əhali gəlirlərinin də səviyyəsində özünü göstərmiş və bu sahədə artım dinamikası qorunub saxlanılmışdır. Belə ki, cari ilin yanvar-iyun ayları ərzində muxtar respublikada əhalinin gəlirləri bir il öncəyə nisbətdə 5,2 faiz artaraq 794 milyon 636 min manata, onun hər bir nəfərə düşən həcmi isə 4,1 faizlik artımla 1803 manata çatmışdır. Bu dövr ərzində orta aylıq əməkhaqqının məbləği 392,6 manat təşkil etmişdir ki, bu da 2014-cü ilin müvafiq dövründəki göstəricidən 2,6 faiz çoxdur.

Əhali gəlirlərinin formalaşmasında sahibkarlıq fəaliyyətini ilk olaraq qeyd etmək lazımdır. Məhz bu baxımdan sahibkarlığın genişləndirilməsinə, məşğulluğun səviyyəsinin artırılmasına ... bir çox fəaliyyət növləri üzrə məşğulluğun təmin olunması öz aktuallığını qoruyur.

Naxçıvan Muxtar Respublikasında azad sahibkarlığın dəstəklənməsi, kiçik və orta sahibkarlığa göstərilən hərtərəfli qayğı ötən dövr ərzində də yerli istehsalın stimullaşdırılmasına, məşğulluğun səviyyəsinin artırılmasına və əhali gəlirlərinə öz təsirini göstərmişdir. Yerli istehsal sahələrinin inkişafının nəticəsidir ki, bu gün muxtar respublikada 354 növdə məhsul istehsal olunur. Bunların 119-u ərzaq, 235-i qeyri-ərzaq məhsullarıdır. 107 növdə ərzaq, 229 növdə qeyri-ərzaq məhsulları olmaqla, ümumilikdə, 336 növdə məhsula olan tələbatın yerli istehsal hesabına ödənilməsi təmin edilmişdir.

Əldə olunan nəticələri təhlil etdikdə görürük ki, iqtisadi aktivliyin yüksəldilməsi məqsədilə ötən dövr ərzində də sahibkarlıq fəaliyyətinə göstərilən kredit dəstəyi mühüm rola malik olmuşdur. Belə ki, 2015-ci ilin ilk yarımili ərzində muxtar respublikada sahibkarlıq fəaliyyəti üçün verilən kreditlərin həcmi 19 milyon 610 min manatdan çox olmuşdur. Bu kreditlərin 14 milyon 361 min manatdan çoxu fərdi sahibkarlığın inkişafına, 5 milyon 249 min manatı isə yeni istehsal sahələrinin yaradılmasına və ya genişləndirilməsinə sərf edilmişdir. Ümumilikdə, cari ilin ilk altı ayı ərzində muxtar respublikada bank və kredit təşkilatları tərəfindən iqtisadiyyatın bütün sahələri üzrə təsərrüfat subyektlərinə 41 milyon 355 min manat həcmində kreditlərin verilməsi təmin olunmuşdur. Bu, 2014-cü ilin müvafiq dövründəki göstəricidən 44,5 faiz çoxdur. 2015-ci ilin ilk altı ayı ərzində muxtar respublikada 12 hüquqi və 1623 fiziki şəxs qeydiyyata alınmışdır.

O da xüsusilə vurğulanmalıdır ki, muxtar respublikada son 20 il ərzində həyata keçirilən iqtisadi və sosial məzmunlu tədbirlər arasında, ilk olaraq, insanların normal yaşayışına birbaşa təsir edən işlər ön plana çıxmışdır. Yerli istehsalçıların maraqlarının qorunması, kiçik sahibkarlığın inkişafına və əhali məşğulluğuna təsir edən mühüm dövlət dəstəkli tədbirlər Naxçıvanın keçən bu dövrdə iqtisadi və sosial həyatda qazandığı uğurların əsasında dayanır. Bu baxımdan Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası məqsədilə muxtar respublikada əmək bazarının tənzimlənməsi və əhalinin səmərəli məşğulluğunun təmin edilməsi istiqamətində görülən tədbirlər artıq öz bəhrəsini verməkdədir. Belə ki, təkcə 2015-ci ilin yanvar-iyun ayları ərzində muxtar respublikada 1830 yeni iş yeri yaradılmışdır. Bunun 97,8 faizi daimi iş yeridir.

*Muxtar respublikada peşə və ixtisasından asılı olmayaraq, hər kəs üçün faydalı olan əməyin təşkili, insanların bilik, bacarıq və vərdişlərindən maksimum səmərə ilə istifadə olunması isə, ümumilikdə, inkişafın mühüm amili kimi sosial rifahımıza da müsbət təsirini göstərməkdədir.*

Ə.CABBAROV

## Dəmir yolu nəqliyyatının fəaliyyəti günün tələblərinə uyğundur




"Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyəti və onun strukturları bu ilin iyul ayında da üzərinə düşən vəzifələri uğurla icra etmiş, xidmətin keyfiyyəti yüksəldilmişdir. Təhlükəsizlik tədbirlərinin, qatarların və dəmir yolu xətlərinin müasir tələblərə cavab verməsi nəqliyyatın bu növündən istifadə edənlərin sayının artmasına səbəb olmuşdur. Cari ilin iyul ayında ayrı-ayrı tikinti təşkilatlarına 8 min 895 ton müxtəliftəyinatlı yük daşınmış, 10 min 884 sərnişin mənzil başına qatarlar vasitəsilə çatdırılmışdır.

Yolların və nəqliyyat vasitələrinin sazlığı daim nəzarətdə saxlanılır. Ötən ay elektrovozlar 4, teplovozlar isə 2 dəfə texniki baxışdan keçirilmiş, 2 elektrovoz cari təmir edilmişdir. Həmçinin bu dövrdə 27 vaqonda cari, bir sərnişin vaqonunda isə depo təmiri aparılmışdır. Bundan başqa, bir sərnişin vaqonu əsaslı təmir edilərək istilik sistemi yenidən qurulmuşdur. Mütəmadi olaraq baş və stansiya yollarına baxış keçirilmiş, keçidlər, yol yatağı, körpü və yoldəyişdiricilər yoxlanılaraq müvafiq təmir işləri görülmüşdür.

Qatar dispetçeri ilə maşinistlər arasında keyfiyyətli radiorabitənin təşkili məqsədilə lokomotivlərdə 7 blok dəyişdirilmiş, dəmir yolu obyektləri və elektrovozlar fasiləsiz elektrik enerjisi ilə təmin edilmişdir. Bəhs olunan dövrdə Texniki İnzibati Binaların Təmir-Tikinti İdarəsi tərəfindən Ordubad Stansiyası İdarəetmə Mərkəzi əsaslı təmir olunmuş, Ordubad Yol Sahəsinin inzibati binasının və sərnişin vağzalı binasının tikintisi davam etdirilmişdir.

"Naxçıvan Dəmir Yolları"
Məhdud Məsuliyyətli Cəmiyyəti

## Təhlükəsiz və keyfiyyətli məhsullarla təminat diqqət mərkəzindədir

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyindən aldığımız məlumata görə, istehlakçıların təhlükəsiz və keyfiyyətli məhsullarla təmin olunması, ticarət norma və qaydalarına əməl edilməsi, istehlak bazarının keyfiyyətsiz və saxtalaşdırılmış mallardan qorunması, istehlakçıların hüquqlarının etibarlı müdafiəsi diqqət mərkəzində saxlanılıb. Bu istiqamətdə 2015-ci ilin ötən dövrü ərzində idxal və yerli istehsal mallarından nümunələr götürülərək təhlil edilməsi, keyfiyyət göstəricilərinin normativ texniki sənədlərin tələblərinə cavab verməsi məqsədilə həyata keçirilən tədbirlər davam etdirilib.

Qiymətlərin sabit saxlanılması məqsədilə istehlak bazarında gündəlik olaraq əsas istehlak mallarının pərakəndə və topdansatış qiymətləri üzrə monitorinqlər aparılıb.

Əhalinin ərzaq məhsullarına olan tələbatının ilboyu ödənilməsinin təmin edilməsi, kənd təsərrüfatı istehsalçılarının fəaliyyətinin stimullaşdırılması, məhsulların tədarükü, saxlanması və satışı infrastrukturunun yaradılması məqsədilə yerli investisiyalar əsasında soyuducu anbarların sayı 20-yə, tutumu 12 min 250 tona, tərəvəz məhsullarının yetişdirilməsi üçün istixana komplekslərinin ümumi sahəsi 100 min kvadratmetrə, uzunmüddətli taxıl anbarlarının tutumu 27 min tona, qısamüddətli taxıl anbarlarının tutumu 43 min 380 tona, taxıl emalı müəssisələrinin sayı 17-yə, ətlik və yumurtalıq istiqamətində quşçuluq təsərrüfatlarının sayı 64-ə çatdırılıb.

Regionlar üzrə yerli resurslar və iqlim şəraiti nəzərə alınmaqla təbii sərvətlərdən səmərəli istifadə edilməsi, kəndlərdə dayanıqlı istehsal sahələrinin yaradılması və məşğulluq səviyyəsinin yüksəldilməsi məqsədilə keçən müddət ərzində muxtar respublikanın rayon və kəndlərində 672 emal sənayesi, kənd təsərrüfatı təyinatlı istehsal və xidmət sahələri yaradılıb.

## Tədqiqat işləri davam edir

*Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun Naxçıvan Muxtar Respublikasının Ordubad rayonu ərazisində fəaliyyət göstərən Xaraba Gilan arxeoloji ekspedisiyası Plovdağ abidələr kompleksində, Dəlmə qalasında və Xaraba Gilan şəhər yerində tədqiqatları davam etdirir.*

Arxeoloji ekspedisiyanın rəhbəri, institutun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Bəhlul İbrahimlinin sözlərinə görə, cari ilin tədqiqat mövsümünün ilkin mərhələsində Plovdağın ikinci nekropolunda yeddi kurqan tədqiq edilib. Bizim eradan əvvəl III minilliyin sonu – II minilliyin əvvəllərinə aid bu kurqanlarda Urmiya yaxınlığındakı Göytəpə abidəsinin K təbəqəsi keramikasına uyğun gil qablar aşkarlanıb. Daha çox Naxçıvanda və Urmiya ətrafı abidələrdə yayılmış bu tip keramika hər iki bölgənin Orta Tunc dövründə vahid arxeoloji mədəniyyət arealında olduğunu sübut edir.

Qeyd edək ki, "Naxçıvan" Universitetinin Tarix fakültəsinin birinci kurs tələbələri də Xaraba Gilan arxeoloji ekspedisiyasında ikihəftəlik təcrübə keçiblər. Plovdağda Tunc dövrünə aid aşkarlanan insan qalıqları (skeletlər) AMEA-nın müxbir üzvü Vəli Baxşəliyevin rəhbərlik etdiyi Azərbaycan-Amerika beynəlxalq arxeoloji ekspedisiyasının üzvü, Çikaqo Universitetinin antropoloqu Selin Elizabet Nugent tərəfindən tədqiq edilir.

Xəbərlər şöbəsi

## 2002-ci il avqustun 7-də AMEA Naxçıvan Bölməsi təsis edilib

# Muxtar respublikada elmin inkişafı yeni mərhələyə yüksəlmişdir

*Azərbaycan xalqının ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin yaradılması haqqında imzaladığı sərəncamdan 13 il keçir. Düz 13 il bundan əvvəl – 2002-ci il avqustun 7-də ulu öndərimizin xeyir-duası ilə Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi yaradılmışdır. Ulu öndərimiz Naxçıvan Bölməsinin yaradılması zəruriliyindən bəhs edərək demişdir:* ***“Mən bununla Naxçıvan Muxtar Respublikasının indiyə qədər çox az öyrənilmiş qədim tarixinin, mədəniyyətinin, elminin, ədəbiyyatının yenidən dərindən araşdırılması və onlar haqqında elmi əsərlərin, populyar kitabların, yaxud başqa nəşrlərin hazırlanması məqsədi daşıyıram. Eyni zamanda, Naxçıvanın özünəməxsus təbiəti, təbii sərvətləri, torpağı, təbii abidələri də, təəssüf olsun ki, indiyə qədər lazımi dərəcədə öyrənilməyib, bəlkə də düz olardı deyim ki, heç öyrənilməyibdir. Bunlara, mənim irəli sürdüyüm məsələlərin öyrənilməsinə böyük ehtiyac var...”***



Naxçıvanda keçən əsrin 70-ci illərindən fəaliyyət göstərən elmi qurumların – Naxçıvan Regional Elmi Mərkəzi, Naxçıvan Elmi-Tədqiqat Bazası və Şamaxı Astrofizika Rəsədxanasının Batabat və Ağdərə stansiyalarının bazasında Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi təşkil olundu. Bölmənin tərkibində altı elmi-tədqiqat müəssisəsi – Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu, İncəsənət, Dil və Ədəbiyyat İnstitutu, Təbii Ehtiyatlar İnstitutu, Bioresurslar İnstitutu, Əlyazmalar Fondu və Batabat Astrofizika Rəsədxanası yaradıldı.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Akademiyanın Naxçıvan Bölməsinin yaradılmasının muxtar respublika elminin inkişafına mühüm töhfə verdiyini vurğulayaraq demişdir: ***“Ulu öndərimizin elmin inkişafı sahəsində qəbul etdiyi mühüm qərarlardan biri də Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin təsis edilməsidir. Bu müdrik qərardan sonra muxtar respublikada elmi-tədqiqat işləri gücləndirilmiş, Naxçıvanın tarixinin, arxeologiyasının, etnoqrafiyasının və təbii sərvətlərinin öyrənilməsi ilə bağlı tədqiqatlar aparılmışdır”.***

Ötən dövrdə muxtar respublika rəhbərinin diqqət və qayğısı nəticəsində Naxçıvan Bölməsi formalaşmış, maddi-texniki bazası gücləndirilmiş, alim və tədqiqatçılar üçün geniş fəaliyyət istiqamətləri müəyyənləşdirilmişdir. 2003-cü ildə əsas bina, 2004-cü ildə Təbii Ehtiyatlar İnstitutunun və Naxçıvan Bölməsinin digər strukturlarının yerləşdiyi bina və 2005-ci ildə Bioresurslar İnstitutunun binası elmi işçilərin istifadəsinə verilmişdir. Nəbatat bağının ərazisi genişləndirilmiş, ikimərtəbəli inzibati bina tikilmişdir. Genefond təcrübə sahəsində də abadlıq və quruculuq işləri qısa müddətdə həyata keçirilmişdir. Bitkilərdən dərman preparatları hazırlamaq üçün avadanlıq alınmış, Batabat Astrofizika Rəsədxanası üçün yeni ikimərtəbəli inzibati bina tikilmişdir. Təbii Ehtiyatlar və Bioresurslar institutlarındakı laboratoriyalar lazımi cihaz və avadanlıqlarla təmin edilmiş, bölmənin “Tusi” nəşriyyatı, Elektron kitabxanası yaradılmışdır. Naxçıvan Bölməsinin 2005-ci ildən “Xəbərlər” jurnalı iki seriyadan ibarət nəşr olunmağa başlayıb. İndiyə qədər “Xəbərlər”in 40 nömrəsi işıq üzü görüb. 2011-ci ildən “Axtarışlar” jurnalı nəşrə başlamışdır. Hər iki jurnal Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının müəyyən etdiyi Dövri nəşrlər siyahısına daxil edilib. Hazırda bölmənin tərkibində Doktorantura şöbəsi, Arxeologiya və Etnoqrafiya Muzeyi, 5 ixtisas üzrə fəlsəfə və elmlər doktoru dissertasiyalarının müdafiəsini keçirən Dissertasiya şuraları, Distant Təhsil Mərkəzi, 4 seysmoloji stansiya fəaliyyət göstərir.

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin elmi-tədqiqat müəssisələrində Naxçıvanın ictimai-siyasi, sosial-iqtisadi, mədəniyyət tarixi, mədəni mühiti, təbii sərvətlərinin kimyəvi, fiziki və coğrafi şəraiti, sosial-iqtisadi infrastrukturlarının yerləşməsi, biomüxtəlifliyi, əlyazmaların öyrənilməsi istiqamətində tədqiqatlar aparılır. Tədqiqatlar nəticəsində bir sıra mühüm nailiyyətlər əldə edilib: İlkin şəhər mədəniyyətinin beş min ildən artıq tarixə malik olması, Naxçıvan ərazisində 500-300 min il bundan əvvəl insan yaşayışının olması, Naxçıvanın Kür-Araz mədəniyyətinin ilk beşiklərindən biri olması, Boyalı qablar mədəniyyətinin bu ərazidə formalaşması, eləcə də bu mədəniyyəti yaradan tayfaların Naxçıvan ərazisində yaşaması, Naxçıvan ərazisində II Kültəpə, Şahtaxtı, Nuhdaban, Oğlanqala və Naxçıvan şəhər-dövlətlərinin olması, Duzdağın mədən üsulu ilə dünyada duz çıxarılan ilk duz mədəni olması, Naxçıvan ərazisində 1220-yə yaxın tarix və mədəniyyət abidəsinin aşkar edilməsi, pasportlaşdırılması bu qəbildən olan işlərdəndir.

Bunlarla yanaşı, arxeoloqlar beynəlxalq arxeoloji qazıntılarda, eləcə də Gəmiqaya, Oğlanqala, Ovçular təpəsi, I Kültəpə, Sirab, Duzdağ, Qız qalası, Xaraba Gilan və digər abidələrin öyrənilməsində iştirak edərək maraqlı maddi-mədəniyyət nümunələri aşkar ediblər. İnstitutun tərkibində Arxeologiya və Etnoqrafiya Muzeyi yaradılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov arxeoloji ekspedisiyaların işi ilə mütəmadi maraqlanır və arxeoloji tədqiqatların nəticəsi ilə yerindəcə tanış olur, öz tapşırıq və tövsiyələrini verir. Ali Məclisin Sədri 2012-ci ildə Oğlanqalada, 2015-ci ildə isə Qız qalası və Ovçular təpəsində beynəlxalq arxeoloji ekspedisiyaların fəaliyyəti ilə tanış olmuşdur.

Naxçıvan Bölməsinin elmi işçiləri apardıqları elmi-tədqiqat işləri nəticəsində çoxsaylı kitab və ensiklopediya, atlas və monoqrafiyalar, ümumiləşdirici əsər və elmi məqalələr çap etdirmişlər. İkicildlik “Naxçıvan Ensiklopediyası”, ingilis və Azərbaycan dillərində “Naxçıvan Abidələri Ensiklopediyası”, üçcildlik “Naxçıvan tarixi”, “Naxçıvan arxeologiyası”, üçcildlik “Naxçıvan Folkloru Antologiyası”, “Naxçıvan teatrının salnaməsi”, “Naxçıvan əhalisinin etnogenezi tarixindən”, “Naxçıvan Muxtar Respublikasının dialektoloji atlası”, “Naxçıvan dialektləri”, “Naxçıvan Muxtar Respublikasının təbii sərvətləri”, Naxçıvan Muxtar Respublikasının flora və faunasına aid “Qırmızı kitab”lar, “Naxçıvan Muxtar Respublikasının dərman bitkiləri”, “Naxçıvan Muxtar Respublikasının ampeloqrafiyası” və digər bu kimi bir sıra fundamental əsərlər son illər nəşr olunan elmi ədəbiyyatlardır.

Elmi-tədqiqat işlərinin nəticələrindən danışarkən qeyd etməliyik ki, Akademiyanın Naxçıvan Bölməsinin 6 elmi-tədqiqat müəssisəsindəki 21 şöbə və 8 laboratoriyada 6 istiqamətdə tədqiqat işləri aparılır. İndiyə qədər bölmə əməkdaşlarının 5583 əsəri nəşr olunub. Bunlardan 100-ü monoqrafiya, 133-ü kitab, 4073-ü elmi məqalə və digər nəşrlərdir. Hazırda bir elmi işçiyə düşən əsərlərin sayı 6-dan çoxdur.

Bölmə fəaliyyətə başlayanda cəmi 51 elmi işçi var idi ki, onun da 13 nəfəri fəlsəfə doktoru idi. 2003-2015-ci illərdə Naxçıvan Bölməsinin 71 əməkdaşı fəlsəfə doktoru və elmlər doktoru dissertasiyaları müdafiə edib. 2003, 2007 və 2014-cü illərdə Azərbaycan Milli Elmlər Akademiyasına keçirilən seçkilərdə Naxçıvan Bölməsi üzrə 3 nəfər akademik, 12 nəfər isə müxbir üzv seçilib. Hazırda Naxçıvan Bölməsində 2 akademik, 6 müxbir üzv, 4 elmlər doktoru, 51 fəlsəfə doktoru, 30-a yaxın doktorant və dissertant çalışır. Təkcə 2014-cü ildə 4 nəfər fəlsəfə doktoru dissertasiyası müdafiə edib, 1 nəfərin elmlər doktoru, 6 nəfərin fəlsəfə doktoru dissertasiyası müdafiəyə buraxılıb, bunlardan 2 nəfəri müdafiə edib, 1 nəfər Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi, 3 nəfər müxbir üzvü seçilib. Əməkdaşlardan 1 nəfər professor, 13 nəfər dosent elmi adı alıb, 8 nəfər doktoranturaya qəbul olunub. Bir sözlə, bölmə əməkdaşlarının 64 nəfərinin elmi adı və elmi dərəcəsi vardır ki, bu da əməkdaşların 77 faizi deməkdir.

Akademiyanın Naxçıvan Bölməsi əməkdaşlarından patent və müəlliflik şəhadətnaməsi alanlar, müxtəlif qrant layihələrində qalib gələnlər də olub. 14 əməkdaş 21 adda patent alıb, 12 layihə üzrə 31 əməkdaş beynəlxalq və respublika səviyyəli qrant layihəsində qalib gəlib. Həmin layihələrdən əldə olunan vəsaitin bir hissəsi Naxçıvan Bölməsinin maddi-texniki bazasının möhkəmləndirilməsinə, yeni cihaz, avadanlıq və reaktivlərin alınmasına yönəlib.

Akademiyanın Naxçıvan Bölməsi dünyanın və ölkəmizin bir sıra elmi-tədqiqat mərkəzləri, ali təhsil müəssisələri ilə əlaqəli fəaliyyət göstərir. Türkiyə Cümhuriyyəti Dil və Tarix Qurumları, Moskva Dövlət Universitetinin Astrofizika Mərkəzi, Polşa Elmlər Akademiyasının Krakov Bölməsi, Tehran Universiteti, Fransa Elmi-Tədqiqat Mərkəzi, Ümumdünya Təbiəti Mühafizə Təşkilatının Qafqaz Ekoregionu, eləcə də ölkəmizin bir sıra elmi-tədqiqat müəssisələri ilə protokollar imzalanıb. Rusiya Federasiyası, İngiltərə, İtaliya, Türkiyə herintoloqları ilə müştərək tədqiqatlar aparılır. Beynəlxalq arxeoloji ekspedisiyalar Naxçıvan Bölməsinin rəhbərliyi ilə 2006-cı ildən fəaliyyət göstərir. Ekspedisiyanın işində ABŞ, Fransa, Türkiyə, İtaliya, Macarıstan və başqa ölkələrin arxeoloqları iştirak edirlər.

Naxçıvan Bölməsinin elmi əməkdaşlarının mühüm bir vəzifəsi də beynəlxalq səviyyəli konfrans və simpoziumlara qatılması və elmi məruzə etməsidir. Hər il bölmənin 30-a yaxın elmi işçisi 25-30 beynəlxalq səviyyəli tədbirlərdə iştirak edir. Bu günə qədər Naxçıvan Bölməsinin 68 əməkdaşı 296 beynəlxalq səviyyəli simpoziumda iştirak və məruzə edib.

Müstəqillik illərində Naxçıvan Muxtar Respublikasında keçirilən ilk beynəlxalq tədbir “Uluslararası qaynaqlarda Naxçıvan” beynəlxalq simpoziumu olmuşdur. Həmin beynəlxalq simpozium Naxçıvanda elmi mühitin inkişafına ciddi təsir göstərdi. İndiyə qədər muxtar respublikada 50-dən artıq beynəlxalq səviyyəli konfrans və simpozium keçirilib. Bir sıra simpoziumlar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi sərəncamları ilə reallaşıb.

Akademiyanın Naxçıvan Bölməsi fəaliyyəti dövründə qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirməyə çalışıb. Əldə olunan nailiyyətlər bunu deməyə əsas verir. Bununla belə, hələ də qarşıda həllivacib olan bir sıra mühüm vəzifələr dayanıb. İlk növbədə, Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin kadr potensialının artırılmasına, elmin istehsalatla əlaqəsinə, aparılan tədqiqatların təcrübədə həyata keçirilməsinə, beynəlxalq qrant layihələrin əldə edilməsinə və digər məsələlərə bundan sonra da diqqət yetirilməlidir.

Akademiyanın Naxçıvan Bölməsi həmişə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı ilə əhatə olunub. Məhz Ali Məclis Sədrinin göstərdiyi qayğı sayəsində Naxçıvan Bölməsinin elmi-texniki təminatı sahəsində yüksək uğurlar qazanılıb, yeni avadanlıqlarla təchiz edilən laboratoriyalar yaradılıb, xüsusilə dünya kitabxanaları ilə bilavasitə əlaqəni təmin edən elektron kitabxana qurulub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin daha bir qayğısı 2014-cü il 1 avqust tarixli “Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin fəaliyyətinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında”kı Sərəncamıdır. Həmin sərəncamla Naxçıvan Bölməsinin işçilərinin vəzifə maaşları 50 faiz artırılıb.

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun* ***“...Qarşılıqlı şəkildə diqqət yetirilməli sahələr çoxdur. Bunlardan ən vacibi isə keçmiş və müasir tariximizin öyrənilməsi, xalqımızın kimlik pasportu olan abidələrimizin tədqiq olunması, qorunub saxlanmasıdır. Bu sahədə hələ çox iş görülməli, ...tarixi coğrafiyamız yenidən və dərindən öyrənilməli, tədqiq edilməlidir”,*** *– fikirləri naxçıvanlı elm adamlarının qarşısında başlıca vəzifə və məqsəd kimi dayanır, elmi fəaliyyət proqramı olaraq gələcək elmi araşdırmaların konkret istiqamətlərini müəyyənləşdirir. Ona görə də Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin əməkdaşları bundan sonra da üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirəcək, muxtar respublikada elmin inkişafına öz töhfələrini verəcəklər.*

**İsmayıl HACIYEV**
***AMEA Naxçıvan Bölməsinin sədri, akademik***

# Elektron xidmətlərin tətbiqi ilə əlaqədar maarifləndirici tədbir

*Sədərək Rayon İcra Hakimiyyətinin və Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun təşkilatçılığı ilə Sədərək rayonunda “Sığorta-pensiya sistemində elektron xidmətlərin tətbiqi və avtomatlaşdırılmış pensiya təyinatı” mövzusunda maarifləndirici tədbir keçirilib.*

Sədərək Rayon İcra Hakimiyyəti başçısının müavini Yusif Seyidov tədbirin əhəmiyyətindən danışıb.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun şöbə müdirləri Yaşar Məmmədov, Vaqif Rəsulov və İsmayıl Həsənov məcburi dövlət sosial sığortahaqlarının ödənişi və hesabat sistemində, sığorta-pensiya sistemində, fərdi uçotun təşkili sahəsində, əmək pensiyalarının təyinatı və ödənişi sahəsində elektron xidmətlərin tətbiqindən danışıblar.

Qeyd olunub ki, informasiya və kommunikasiya texnologiyalarının uğurlu tətbiqi nəticəsində Dövlət Sosial Müdafiə Fondunun bütün orqanlarında əhaliyə və sığortaedənlərə göstərilən xidmətlər elektron formatda təşkil edilib.

Dövlət Sosial Müdafiə Fondu tərəfindən həyata keçirilən tədbirlər elektron sənəd mübadiləsinin daha da təkmilləşdirilməsinə və informasiya-kommunikasiya texnologiyalarının tətbiqi nəticəsində idarəetmənin səmərəliliyinin artırılmasına yönəldildiyini tədbir iştirakçılarının diqqətinə çatdıran fond əməkdaşları bildiriblər ki, istifadəyə verilən “Məcburi dövlət sosial sığortahaqlarının onlayn ödənilməsi” elektron xidməti vasitəsilə sığortaedənlər, sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər, torpaq mülkiyyətçiləri məcburi dövlət sosial sığortahaqlarının ödənilməsini asanlıqla həyata keçirirlər. İndi istənilən sığortaedən heç yerə getmədən plastik kart vasitəsilə internet üzərindən məcburi dövlət sosial sığortahaqlarını onlayn ödəyə bilər. Kənd yerlərində yaşayan sığortaedənlər məcburi dövlət sosial sığortahaqlarını bağlanmış müqavilələrə əsasən yaşadıqları yerlərdə poçt şöbələri vasitəsilə ödəyə bilərlər.

Vurğulanıb ki, fond tərəfindən ötən ildən avtomatlaşdırılmış pensiya təyinatı sistemi istifadəyə verilib. Fondda yaradılan pensiya təyinatı xidmətinə əmək pensiyası hüququ yaranmış vətəndaş ***(+99436) 550-59-79*** nömrəsinə zəng edib və şəxsiyyət vəsiqəsinin nömrəsini bildirdikdə ona real vaxt çərçivəsində pensiya təyin olunması həyata keçirilir.

Sədərək rayonunda sığorta-pensiya sistemində elektron xidmətlərin tətbiqi ilə bağlı görülən işlər barədə fondun Sədərək Rayon Şöbəsinin müdiri Nəsimi Rzayev tədbir iştirakçılarına məlumat verib.

Sonda suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

***Özəl sektorun inkişafı daxili bazarın qorunmasında, idxaldan asılılığın aradan qaldırılmasında, əhalinin tələbatının yerli istehsal hesabına ödənilməsində əhəmiyyətli rola malikdir. "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nda da özəl sektorun inkişafı əsas yer tutur. Bu məqsədlə davamlı tədbirlər həyata keçirilir, sahibkarlara dövlət maliyyə dəstəyi göstərilir, yeni meyvə bağları salınır, istixana kompleksləri yaradılır. "Naxçıvan bağları" istixana kompleksinin fəaliyyətə başlaması həyata keçirilən tədbirlərin davamıdır.***

# "Naxçıvan bağları" əmtəə nişanı ilə satışa çıxarılan yerli tərəvəz məhsullarına tələbat artır

## *Böyükdüz istixana kompleksində yeni layihə həyata keçirilir*



Sahibkar Elçin Bağırov söhbətində qeyd etdi ki, bu mühüm əhəmiyyətli sahənin inkişaf etdirilməsi üçün biznes-plan hazırlanıb Sahibkarlığa Kömək Fonduna təqdim edilmiş və fonddan 1 milyon 500 min manat güzəştli kredit ayrılmışdır. 2013-cü ilin mart ayında 10 min kvadratmetr, may ayında isə 1500 kvadratmetr sahəsi olan yeni istixana kompleksi fəaliyyətə başlamışdır. Burada Hollandiya və Türkiyə istehsalı olan müasir avadanlıqlar quraşdırılmış, anbarlar, qazanxana, yeməkxana və işçilər üçün otaqlar yaradılmış, istixana üçün yeni kənd təsərrüfatı texnikaları alınmışdır. Ümumilikdə, yeni istixana kompleksinin tikintisinə və müasir texnoloji avadanlıqların alınmasına 2 milyon 100 min manat vəsait sərf olunmuşdur ki, bunun 600 min manatı daxili imkanlar hesabına ödənilmişdir.

İstixana kompleksində Zirə, Tovuz sortu olan pomidor yetişdirilmiş və sifarişə uyğun, nəfis tərtibatla bəzədilmiş 7 kiloqramlıq karton taralarda topdansatış bazalarında, 250-500 qramlıq və 1 kiloqramlıq plastik taralarda isə pərakəndə satış mağazalarında Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində qeydə alınmış "Naxçıvan bağları" əmtəə nişanı ilə satışa çıxarılmışdır. Bu, muxtar respublikamızda həmin məhsula olan tələbatın az bir hissəsini ödəyir. Artan tələbatın ödənilməsi və istixana kompleksinin fəaliyyətinin genişləndirilməsi məqsədilə 2014-cü ilin yanvar ayında daha bir biznes-plan hazırlanıb Sahibkarlığa Kömək Fonduna təqdim olunmuşdur. Ümumi dəyəri 3 milyon 150 min manat qiymətləndirilən layihənin reallaşması üçün 2 milyon 500 min manat dövlət maliyyə dəstəyi göstərilməsi, qalan 650 min manatın isə sahibkarın daxili imkanları hesabına ödənilməsi nəzərdə tutulmuşdur. 2014-cü ilin fevral ayında Sahibkarlığa Kömək Fondundan 2 milyon manat güzəştli kredit verilmiş və layihənin icrasına başlanılmışdır. Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində 45 min 620 kvadratmetr torpaq sahəsi ayrılmış, əraziyə "Qarabağlar" kəhrizindən 17 kilometr, Böyükdüz kəndi ərazisində yerləşən artezian-dan isə 1,5 kilometr məsafədə plastik borularla su xətləri çəkilmiş, torpaq işləri görülmüş, transformator yarımstansiyası qoyulmuşdur.

Kompleksin daxilindəki ayrı-ayrı bölmələrdə ümumi uzunluğu 26 min 600 metr olan 80 santimetrdən 1 metrədək dərinlikdə drenaj xətləri çəkilmiş, xüsusi örtükləri olan süzgəcli borular salınıb mərkəzi xəttə birləşdirilmişdir. Bu da yay mövsümündə suvarma zamanı torpağın tərkibində olan artıq suyun axıdılmasına, şoranlaşmanın qarşısının alınmasına, qış mövsümündə isə xüsusi pompalarla drenaj xəttinə vurulan isti hava ilə şitillərin vegetasiya dövrünün normal keçməsinə imkan verir. İstixana kompleksində avtomatik rejimdə işləyən iqlim-nəzarət sistemləri, isitmə və havalandırma avadanlıqları quraşdırılmışdır. Türkiyənin "Alarko" şirkətindən alınmış 6 ədəd sobanın 3-ü təbii qazla, 3-ü isə həm təbii qaz, həm də dizel yanacağı ilə işləyir ki, bu da müəssisəni fasiləsiz istiliklə təmin edir. İstixana kompleksinin gündəlik tələbatı nəzərə alınaraq hər birinin tutumu 225 ton olan 4 yerüstü qapalı hovuz quraşdırılmışdır. Bu, su xəttində hər hansı bir nasazlıq yaranarkən fasiləsiz su ilə təminatda mühüm rol oynayır. Burada su təchizatı mərkəzi idarəetmə sistemi ilə təmin olunmuş avadanlıqlar vasitəsilə aparılır. Sutəmizləyici qurğudan keçdikdən sonra torpağın tərkibi haqqında laborator analizin cavablarına uyğun ayrı-ayrı çənlərdə hazırlanmış gübrələr suya əlavə olunmaqla istixanaya ötürülür və suvarma damcı üsulu ilə həyata keçirilir.

İstixana kompleksində toxumcücərtmə, şitilyetişdirmə, pomidor, xiyar, çiyələk, dibçək gül toxumları yetişdirilən ayrı-ayrı bölmələr və turşubağlama sahəsi yaradılmışdır. İllik istehsal gücü 1,2-1,5 milyon ədəd olan şitilyetişdirmə bölməsində istehsal olunan şitilin 250 min ədədi kompleksin daxili tələbatını ödəyir, qalan hissəsi isə muxtar respublikamızda fəaliyyət göstərən digər istixana komplekslərinə və fərdi torpaq mülkiyyətçilərinə satılır. Toxumcücərtmə bölməsində tələbata uyğun olaraq, xüsusi qəliblərdə müxtəlif sort toxumlar cücərdilir. Çiyələkyetişdirmə bölməsində su kanalı ilə təchiz olunmuş novdanlarla üçmərtəbəli əkin sistemi quraşdırılmış, torpağa üzvi gübrə və torf qarışığı tökülərək əkin aparılmışdır. Turşubağlama sahəsində isə məhsuldarlıq dövrü başa çatan pomidor, xiyar kollarından toplanan yetişməmiş məhsullar 200 kiloqramlıq taralarda turşu qoyulacaq və sonrakı mərhələdə 2, 3, 5 və 10 kiloqramlıq taralara qablaşdırılıb satışa çıxarılacaq. Ümumiyyətlə, kompleksdə istehsal olunan məhsullar xaricdən idxal olunan eyniadlı məhsullardan xeyli keyfiyyətlidir.

İstixanada müasir kənd təsərrüfatı texnikalarından istifadə, yeni texnologiyaların tətbiqi yüksək məhsuldarlığa nail olunmasında və əhalinin keyfiyyətli məhsullarla təminatında əhəmiyyətli rol oynayır. Kompleksdə becərmə tədbirlərində üzvi gübrələrdən istifadə edilir, pomidor və xiyar kollarının tozlanması xüsusi arı ailələri vasitəsilə aparılır. Bu da məhsuldarlığın təbii yolla artırılmasına, mövsümi ekoloji təmiz məhsul istehsalına imkan verir. Ekotester vasitəsilə məhsulun tərkibində olan radiasiya və nitratın (azot) müəyyən olunmuş normaya uyğunluğu mütəmadi olaraq nəzarətdə saxlanılır. İllik istehsal gücü min ton olan istixana kompleksinin fəaliyyətə başlaması qış aylarında daxili bazarın tərəvəz məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsinə əlverişli şərait yaradır.




Artan tələbatın ödənilməsi üçün cari ildə istixana kompleksində 3 min kvadratmetr ərazidə çiyələkyetişdirmə sahəsinin yaradılmasına başlanılıb. Hazırda istixana kompleksində daxili suvarma şəbəkəsi və üçpilləli novdanlar qurulur. Türkiyənin "SBR" şirkəti ilə bağlanmış müqaviləyə əsasən, 48 min ədəd şitil alınıb gətiriləcək və noyabr ayının 15-də əkiləcək. Yaxın vaxtlarda istifadəyə verilməsi nəzərdə tutulan çiyələkyetişdirmə sahəsi qış mövsümündə bu məhsula olan tələbatın yerli istehsal hesabına ödənilməsinə əlverişli şərait yaradacaq, eyniadlı məhsulun idxal olunmasının qarşısını alacaq.

Yay movsümündə də daxili bazarın tərəvəz məhsulları ilə təmin olunması diqqət mərkəzində saxlanılıb, istixana kompleksinin ətrafında yerləşən 10 hektar sahə icarəyə götürülüb və bu ərazidə pomidor, badımcan, bibər, qovun, qarpız əkilib. Yetişdirilən məhsul kənd təsərrüfatı məhsullarının satışı yarmarkasında münasib qiymətə alıcılara satılır. Hazırda istixana kompleksində payız-qış mövsümünə hazırlıqla əlaqədar olaraq torpaq qüvvətləndirmə işləri görülür, suvarılır, üzvi gübrə verilir və dincə qoyulmuş torpaqlarda şitillər əkilib-becərilir.

*Böyükdüz istixana kompleksinin daxili bazarın yüksəkkeyfiyyətli tərəvəz məhsulları ilə təminatında, eləcə də əhalinin məşğulluğunda mühüm payı vardır. Burada 50 nəfər işlə təmin edilib ki, bu işçilərin də əksəriyyəti Böyükdüz kəndinin sakinləridir.*

✍ **Kərəm HƏSƏNOV**

# Kənd təsərrüfatının sığortası diqqət mərkəzindədir

*Kənd təsərrüfatının inkişaf etdirilməsi, bitkiçilik və heyvandarlıq məhsullarının istehsalı etibarlı ərzaq təminatının yaradılmasında mühüm şərtdir. Bu sahənin normal fəaliyyətinin təmin olunması isə bir sıra amillərdən asılıdır. Ona görə də bu sahədə strateji məqsədlərə çatmaq üçün həyata keçirilən tədbirlər arasında bitkiçilik və heyvandarlıq məhsullarının sığortasına diqqət də mühüm əhəmiyyət kəsb edir. Çünki kənd təsərrüfatı gözlənilməz hadisələrə qarşı çox həssasdır.*

Aqrar sahədə istehsal prosesinə və eləcə də ərsəyə gətirilmiş hazır məhsula bir sıra gözlənilməz hadisələr zərər vura bilər. Bunlar təbiətin doğurduğu fəlakətlər və texnogen mənşəli bəzi hadisələrdir. Hazırda ölkəmizdə mövcud olan kənd təsərrüfatı məhsullarının sığortası qaydalarına əsasən, yanğın, dolu, sel, daşqın, şaxtavurma kimi hadisələrə qarşı sığortalanmış kənd təsərrüfatı məhsulları sığorta hadisəsi baş verdiyi zaman sığorta orqanları tərəfindən dəymiş maddi zərərin ödənilməsi həyata keçirilir. Bu məsələlərin həllində dövlətin marağı isə, ümumilikdə, kənd təsərrüfatının inkişafının stimullaşdırılması istiqamətində yürüdülən siyasətin bir hissəsidir. Dövlət bu sahəyə xüsusi diqqət göstərərək baş verən gözlənilməz hadisələrdən kənd təsərrüfatı məhsullarına dəymiş maddi itkilərin əvəzinin fermer və torpaq mülkiyyətçilərinə vaxtında ödənilməsinə çalışır.

Aqrar sahədə davamlı istehsala nail olmaq üçün istehsalçıların bu mühüm dəstəyə çox ehtiyacı vardır. Bu baxımdan 21 iyul 2015-ci il tarixdə keçirilən dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin on birinci sessiyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Kənd Təsərrüfatı Nazirliyi və Dövlət Baş Sığorta Agentliyinə kənd təsərrüfatında sığorta işinin təşkilinə diqqətin artırılması, istehsalçıları mümkün sığorta hadisələri barədə maarifləndirməsi tapşırığını verərək bu sahənin diqqət mərkəzində olduğunu bir daha vurğulamışdır.

Kənd təsərrüfatında sığorta nə üçün belə vacibdir? Qeyd etdiyimiz kimi, ölkədə ərzaq təhlükəsizliyinə nail olunması üçün kənd təsərrüfatının dayanıqlı fəaliyyət göstərməsi lazımdır. Adıçəkilən sahədə sığortanın stimullaşdırılması haqqında Azərbaycan Respublikasının Qanununda qeyd olunduğu kimi burada məqsəd kənd təsərrüfatı istehsalçılarının əmlakının təbii fəlakətlərdən sığorta olunmasında dövlətin iştirakını təmin etməklə, aqrar sahədə sığortanın inkişafını stimullaşdırmaq və sığortalılara sığorta hadisələrindən dəyən zərərin ödənilməsinə verilən zəmanətin iqtisadi əsaslarını gücləndirməkdən ibarətdir. Göründüyü kimi, bu sahədə təşkil olunmuş sığorta işi kənd təsərrüfatı məhsulu istehsalçılarının iqtisadi maraqlarının təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir. Burada qarşıya qoyulan vəzifə isə ilk olaraq, bitkiçilik və heyvandarlıq məhsulları istehsalçılarının təbii fəlakətlər zamanı dəyə biləcək maddi zərərlərdən onlara təminat verməkdir.

İlk olaraq, bitkiçilik məhsulları istehsalındakı sığortaya baxsaq, mövcud qanunlara görə istixanalar və onlarda yetişdirilən gül-bəzək, tingliklər, şitilliklər və çoxillik otların məhsulları istisna olunmaqla kənd təsərrüfatı məhsulları istehsalçılarına məxsus olan bütün bitkilər və çoxillik əkmələrin məhsulları sığortaya cəlb olunur. Yuxarıda qeyd olunduğu kimi, əgər yetişdirilmiş məhsul yanğın, dolu, sel, daşqın və şaxtavurma kimi gözlənilməz hadisələrdən tam məhv olduqda və ya bir hissəsi məhv olduqda bir hektarın əkin sahəsi məhsulunun dəyəri nəzərə alınmaqla məhsulun sığortalanma faizi miqdarında sığorta ödənişi verilir.

Kənd təsərrüfatında sığortanın stimullaşdırılması haqqında Azərbaycan Respublikasının Qanununun icrası istiqamətində Nazirlər Kabineti tərəfindən təsdiq olunmuş qaydalara əsasən, ölkəmizdə buğda, arpa, qarğıdalı, dən üçün günəbaxan, kartof, şəkər çuğunduru, tərəvəz (göyərti istisna olunmaqla) sahələrinin məhsulları yanğın, dolu, sel, daşqın, şaxtavurma kimi hadisələrdən sığortalanır. Bu zaman bağlanılan sığorta müqavilələrində hesablanmış sığortahaqlarının 50 faizi dövət büdcəsinin vəsaiti hesabına ödənilir. Həmçinin qanunvericiliyə uyğun olaraq müəyyənləşdirilmiş kənd təsərrüfatı sığortası üzrə sığorta tarifi 5 faiz həcmində müəyyən olunur. Bu zaman kənd təsərrüfatı məhsulunun sığorta məbləği isə sığorta müqavilələrinin bağlandığı ildən əvvəlki dövrün orta məhsuldarlığı nəzərə alınmaqla rayonun orta göstəricisi əsasında müəyyən edilir.

Kənd təsərrüfatı heyvanları üzrə isə yaşı 6 aylıqdan yuxarı iribuynuzlu mal-qara, qoyun və keçilər, habelə bir yaşdan yuxarı yük heyvanları, 3 aylıqdan yuxarı ev quşları və bir yaşdan yuxarı arı ailələri sığortaya cəlb olunur. Bundan başqa, broyler təsərrüfatlarında yetişdirilən quşlar da bu sığortaya cəlb edilir. Sığorta etdirilmiş kənd təsərrüfatı heyvanları yoluxucu xəstəliklərdən, gözlənilməz hadisələrdən tələf olduqda onların sahibinə sığorta ödənişləri verilir. Heyvanların sığortası üzrə müqavilələr, göstərilən yaşa çatmış həmin növdən olan bütün heyvanların balans dəyəri, yaxud bazar qiymətinin 50 faizindən az olmamaqla, 80 faizədək məbləğdə bağlanılır.

Kənd təsərrüfatı məhsulunun və əmlakın sığortası könüllülük prinsipləri əsasında həyata keçirilir. Bu zaman sığortanın şərtləri və aparılması qaydaları qanunvericiliyə uyğun olaraq sığortaçı ilə sığortalı arasında bağlanan sığorta müqaviləsində müəyyən edilir. Burada sığorta tarifləri sığorta hadisələri nəzərə alınmaqla sığortaçı tərəfindən müəyyən edilir. Bundan əlavə, kənd təsərrüfatı ilə məşğul olan sahibkar fermerlər və torpaq mülkiyyətçiləri hazır məhsulunun və mülkiyyətinin sığortalanması zamanı sığortahaqqı və sığorta ödənişlərinin müddəti və həcmi, habelə sığorta müqavilələrinin bağlanılma qaydaları və sığortaçı ilə sığortalının hüquq və vəzifələri haqda sığorta agentlərindən dəqiq məlumat əldə edə bilərlər. Məsələn, əmlakını ardıcıl olaraq üç və daha artıq illər ərzində tam dəyərində sığorta etdirmiş, lakin sığorta ödənişi almamış sığortalılara hesablanmış sığorta haqqından 3 il müddətinə 10 faiz, 4 il müddətinə 20 faiz, 5 il və daha artıq müddətə 30 faiz güzəştlər verilir.

***Göründüyü kimi, kənd təsərrüfatının sığortası fermerlər və torpaq mülkiyyətçilərinə geniş imkanlar vəd edir. Bu, kənd təsərrüfatının inkişafına və eyni zamanda aqrar biznesin uğuruna təminat verir.***

✍ **Əli CABBAROV**

# Oxucu məktubları

## Dövlətimizə minnətdarıq

*Hörmətli redaksiya!*

Mən Kəngərli rayonunun Xok kəndində yaşayıram. Bu məktubu yazmaqda məqsədim mənim kimi aztəminatlı insanlara böyük diqqət və qayğı göstərərək bizi unutmaması üçün dövlətimizə minnətdarlıq etməkdir. Dörd nəfərlik ailəyik. 35 yaşım olsa da, xəstəliyimlə əlaqədar heç bir yerdə işləmək imkanım yoxdur. Həyat yoldaşım da iki azyaşlı uşağımıza baxır. Başqa gəlirlərimiz olmadığından və həyətyanı təsərrüfatla məşğul ola bilmədiyimizdən maddi təminatımız məhduddur. Ancaq sağ olsunlar, dövlətimiz bizim kimi ailələri diqqətdə saxlayır. Vaxtaşırı yaşayış şəraitimizlə maraqlanırlar, maddi yardımlar edirlər. Çox razıyıq. Elə bu yaxında Naxçıvandan gəlmişdilər. Həkimlər, nazirlik işçiləri evimizdə oldular, ailə üzvlərimizi tibbi müayinədən keçirdilər, təzə soyuducu hədiyyə etdilər, ərzaq payı verdilər. Bu, dövlətimizin gücüdür ki, özünün hər vətəndaşına belə qayğı göstərir. Bu qayğıya görə dövlətimizə minnətdarıq.

***Hörmətlə, Qılman ƏLİYEV***
***Kəngərli rayonu,***
***Xok kəndi***

## İdmana qayğının daha bir nümunəsi

Övladımın yaşını nəzərə alaraq onun hansı idman növü ilə məşğul olmağını çox müzakirə etdik. İnternet portallarından oxumuşdum ki, uşağı hər hansı idman növünə cəlb etməzdən əvvəl onun yaşını nəzərə almaq lazımdır. Çünki hər hansı idman növünə bələd olmadan uşağı bu sahəyə yönləndirmək onun gələcəyinə mənfi təsir göstərə bilər. Məhz buna görə çox tərəddüd edirdim.

Məktəbdə dərslərindən geri qalmaması üçün daha uyğun seçim etməli, seçdiyimiz idman növü həm də uşağın zehnini yormamalı, asudə vaxtının səmərəli keçməsi üçün ona müsbət təsir etməli idi. Öyrəndim ki, Naxçıvan şəhərində stolüstü tennis idman növü bölməsi fəaliyyətə başlayıb. Müraciət etmək üçün Üzgüçülük Mərkəzinə yollandıq. Etiraf edim ki, gördüyüm şərait məni çox təəccübləndirdi. Qısa vaxt kəsiyində bu bölmənin inkişafı üçün hər bir şərait yaradılıb və uşaqların tennislə məşğul olmaları üçün bu bölmə lazımi avadanlıqlarla təmin edilib. Sevindirici haldır ki, bu bölmədə bütün yaş qrupları üçün imkanlar var. Hələlik, övladım 3 məşqdə iştirak edib və görünən odur ki, stolüstü tennisə hədsiz dərəcədə marağı artıb.

Muxtar respublikada idmanın müxtəlif sahələrinin inkişafına ciddi önəm verilir. Bu da uşaqlarımızın sağlam ruhda böyüməsi üçün başlıca şərtlərdən biridir. Stolüstü tennis bölməsinin yaradılması bu istiqamətdə də həyata keçirilən tədbirlərin davamıdır və bunun üçün minnətdarlığımızı bildiririk.

***Gülarə ƏLİYEVA***
***Naxçıvan şəhər sakini***

## Yaradılmış şərait məsuliyyət hissimizi artırıb

*Hörmətli redaksiya!*

Hamımıza məlumdur ki, muxtar respublikamızın siması son illərdə xeyli dəyişilmiş, yeni obyektlər tikilmiş, böyük abadlıq işləri aparılmışdır. Yeni tikilən, əsaslı təmir olunan obyektlər içərisində səhiyyə müəssisələrinin də sayı çoxdur. İndi bu qədim diyarın ən ucqar dağ kəndlərində belə, müasir tələblərə cavab verən tibb ocaqları fəaliyyət göstərir. Əlbəttə, bütün bu işlərin görülməsində əsas məqsəd dövlətimizin vətəndaşlarımızın sağlamlığına verdiyi böyük önəmdir. "Sağlam bədəndə sağlam ruh olar" deyiblər. Biz də tibb işçisi olaraq həyatımızı insanların sağlamlığının qorunması kimi müqəddəs bir vəzifəyə həsr etmişik.



Bu yaxınlarda Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzi üçün yeni binanın istifadəyə verilməsi hər birimizi çox sevindirdi. Əvvəlki iş yerindən fərqli olaraq indi burada fəaliyyətimiz üçün hərtərəfli şərait var. Mərkəz üçün ən müasir tibbi avadanlıqlar alınaraq quraşdırılıb. Bu avadanlıqlar müxtəlif yoluxucu xəstəliklərin müayinə və müalicəsini yüksək səviyyədə aparmağa imkan verir. Ona görə də yaradılmış bu şərait qarşımıza daha böyük vəzifələr qoyur. Çalışacağıq ki, bu vəzifələrin yerinə yetirilməsində səylərimizi əsirgəməyək, bizə göstərilən etimadı əməli işimizlə doğruldaq.

***Havva ƏLİYEVA***
***mərkəzin tibb bacısı***

## Məktəblilərin yay tətili günləri maraqlı təşkil olunur



*Hörmətli redaksiya!*

Mən bu məktubu sizə Şərur rayonundan yazıram. Əvvəlcə onu qeyd edim ki, qızım Fatma Məmmədova Şahbuz rayonundakı Ağbulaq İstirahət Mərkəzində "Yay məktəbi"ndə iştirak edib evə qayıtdıqdan sonra məndə bu tədbirin təşkilatçılarına minnətdarlıq etmək arzusu yarandı.

Ata-ana üçün övlad dəyərli varlıqdır. Bizim ailəmizin də ən dəyərli varlığı övladımız Fatmadır. Fatmanın Ağbulaq İstirahət Mərkəzinə göndərildiyini eşidəndə çox sevindik. Çünki adətən qızımız yay tətili günlərində istirahətini evdə keçirməli olurdu. Ancaq bu il o da arzusuna çatdı. Ağbulaq İstirahət Mərkəzindən qayıtdıqdan sonra mərkəzdə yaşadığı təəssüratları ailəmizlə bölüşdü və dedi ki, "Yay məktəbi"ndə çox sayda müsabiqələrdə, yarışlarda iştirak edib, özünə yaxşı dostlar qazanıb. Şahbuz rayonunun gəzməli-görməli yerlərində olmaq onun lap ürəyincə olub. Bir sözlə, qızım bu istirahət mərkəzindən böyük sevinc hissləri ilə qayıdıb, daha yaxşı oxumağa, müəllimlərinin verdiyi tapşırıqların öhdəsindən gəlməyə onda böyük həvəs yaranıb. Övladlarımıza yaradılan belə şərait muxtar respublikada sağlam gənclik yetişdirilməsi məqsədi daşıyır. Bunu sabahımıza cavabdehlik hissinin ifadəsi kimi dəyərləndirir və dövlətimizə minnətdarlığımızı bildiririk.

***Səfər MƏMMƏDOV***
***Şərur rayonu***

## Xalq teatrının uğurları artır



Muxtar respublikamızın bir neçə rayonunda xalq teatrı yaradılıb. Həmin teatrlar onlara göstərilən diqqət və qayğıdan ruhlanaraq yeni tamaşalar hazırlayır, tamaşaçıların asudə vaxtlarının səmərəli keçməsinə çalışırlar. Belə kollektivlərdən biri də Babək Rayon Mədəniyyət və Turizm Şöbəsinin nəzdində fəaliyyət göstərən xalq teatrıdır. 2008-ci ildən dram dərnəyi kimi fəaliyyətə başlayan kollektiv Cəlil Məmmədquluzadənin "Kamança" və Ənvər Məmmədxanlının "Xürrəmilərin ağ şahini" əsərləri ilə tamaşaçıların görüşünə gəlib. Elə həmin əsərlərlə də tamaşaçıların böyük rəğbətini qazanıb.

2010-cu ildə braziliyalı yazıçı G.Fiqeyredin "Ezop" əsərini tamaşaya qoymaqla çox böyük uğura imza atan dərnək Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2009-cu il 13 iyul tarixli qərarına əsasən xalq teatrı adını alır. Bundan sonra kollektiv Bəxtiyar Vahabzadənin "Yollara iz düşür" səhnə əsəri ilə tamaşaçılarla görüşür.

Bunun ardınca xalq teatrı müxtəlif tamaşalar hazırlamağa başlayır. Məhərrəm Əlizadənin "Şeyx Rəhmətullah", Cəfər Cabbarlının "Solğun çiçəklər", Hüseyn Cavidin "Ana" və başqa əsərlərlə tamaşaçıların görüşünə gəlir. Teatrın kollektivi yeni tamaşalarla yanaşı, köhnə repertuara da müraciət edərək Ordubad və Kəngərli rayonlarında "Ezop" tamaşasını sənətsevərlərə təqdim edib.

2013-cü il iyun ayında xalq teatrı Süleyman Sani Axundovun "Məhəbbət nişanəsi" musiqili komediyasını tamaşaya qoyur. Əsərdə əməyə, dostluq və sədaqətə məhəbbət, əxlaq prinsiplərinə hörmət, ictimai, mədəni inkişafın yolunda əngəl olanlara nifrət hissləri teatr aktyorlarının ifasında daha canlı şəkildə tamaşaçılara çatdırılıb.

Ötən ilin may ayında Bəxtiyar Vahabzadənin "İkinci səs" pyesinin tamaşası ilə sənətsevərləri sevindirən xalq teatrı dekabr ayında Səid Rüstəmovun "Durna" komediyası ilə tamaşaçıların qarşısında çıxış edib.

Bu il xalq teatrı N.B.Vəzirovun "Yağışdan çıxdıq, yağmura düşdük" komediyasını tamaşaya qoyub. Bu tamaşanın əsas ideyası pula hərisliyi ifşa etməkdir. Caniliyin hökm sürdüyü mühiti tənqid hədəfi seçən komediya gülüşdoğuran tip və obrazlarla zəngindir. Kollektiv həmin tamaşa ilə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkil etdiyi müsabiqədə iştirak edib, I yerə layiq görülüb.

Babək Rayon Xalq Teatrının repertuarında olan tamaşaların quruluşçu rejissoru Yusif Əliyev və rejissor assistenti Sədaqət Əliyevadır. Tamaşaların rəssamı Əli Səfərov, musiqi tərtibatçısı Səyyad Məmmədov, işıq və səs operatoru Faiq Heydərovdur. Teatrın aktyor və aktrisalarından Firdovsi Səfərov, Şölə Novruzbəyli, Stella Babayeva, Səbinə Corayeva, İsmayıl Qurbanov, Kənan Feyzullayev və başqaları tapşırılan rolları özünəməxsus bacarıqla ifa edir, tamaşaçıların rəğbətini qazanırlar.

Qeyd edim ki, xalq teatrı istedadlı gəncləri öz ətrafına toplamaq qayğısına qalmağı da unutmur. Naxçıvan Musiqi Kollecinin tələbəsi Kənan Feyzullayev və gənc aktrisa Səbinə Corayeva belələrindəndir.

Orta məktəblərdə təhsil alan şagirdlər də xalq teatrına cəlb edilirlər. Xalq teatrının nəzdində məktəbli uşaqlardan ibarət "Tumurcuq" adlı dram dərnəyi yaradılıb. Burada uşaqlar kiçik səhnəciklər hazırlayırlar.

**S.ƏZİMOVA**

## Ustad dərsi keçilib

***Ordubad Rayon Uşaq yaradıcılıq mərkəzinin rəsm dərnəyinin üzvlərinə rəssamlıq sənətinə və heykəltəraşlığa aid ustad dərsi keçilib.***



Ordubad şəhərindəki Əkbər Ağayev adına 3 nömrəli tam orta məktəbdə keçilən dərs Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi və Rəssamlar Birliyinin birgə təşkilatçılığı ilə gerçəkləşib.

25-dək dərnək üzvünün iştirak etdiyi təcrübi dərsdə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva rəssamlıq və heykəltəraşlıq sənətləri barədə ətraflı məlumat verib.

Azərbaycan Respublikasının Xalq rəssamı Hüseynqulu Əliyev 20 Yanvara həsr olunmuş "Hayqırış" əsərinin barelyefinin eskizinin hazırlanmasını şagirdlərə praktik şəkildə izah edib.

Sonda dərnək üzvlərini maraqlandıran suallar cavablandırılıb.

## Şahmat üzrə şəhər birinciliyi başa çatıb

Naxçıvan Şəhər Şahmat Mərkəzində "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında məktəblilərin yay tətilinin səmərəli təşkili məqsədilə yeniyetmələr arasında şahmat üzrə şəhər birinciliyi keçirilib. Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi ilə Naxçıvan Şəhər Uşaq-gənclər şahmat məktəbinin birgə təşkil etdiyi birincilikdə 8-12 yaş qruplarında 60-a yaxın oğlan və qız şahmatçı iştirak edib. İsveçrə sistemi üzrə 7 turdan ibarət olan yarışın açılış mərasimində çıxış edən şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov bildirib ki, bu yarışı keçirməkdə məqsəd məktəblilərin yay tətilində asudə vaxtlarının daha səmərəli təşkil edilməsindən ibarətdir. Sonra Naxçıvan Şəhər Uşaq-gənclər şahmat məktəbinin direktoru Emin Hacıyev çıxış edərək yarışın qaydaları haqqında şahmatçılara məlumat verib.

Yarışın yekun nəticələrinə əsasən, oğlanlar arasında Əbülfəz Məmmədli, Əli Həsənov, Əli və Əjdər Rzalı, qızların mübarizəsində isə Azərin Cəfərli, Azərin Məmmədli və Səma Sadiqova müvafiq yaş qruplarında bütün rəqiblərinə qalib gələrək birinci olublar.

Sonda hər yaş qrupunda qalib gələn idmançılara diplomlar təqdim edilib.

**Ceyhun MƏMMƏDOV**

### İtmişdir

Ordubad rayonunun Dizə kəndində yaşamış Qafarova İsmət Əliqulu qızının adına olan JN-9$^A$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor əvəzi:
MUXTAR MƏMMƏDOV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir
və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 600